*Mehriban Əliyeva:*

# Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb

## AZƏRBAYCANIN BİRİNCİ VİTSE-PREZİDENTİ MEHRİBAN ƏLİYEVA RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNƏ MİNNƏTDARLIQ MƏKTUBU ÜNVANLAYIB



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Rusiyanın "Dostluq" ordeni ilə təltif olunması ilə əlaqədar Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə minnətdarlıq məktubu ünvanlayıb.**

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan ilə Rusiya arasında dostluq münasibətlərinin inkişafı sahəsində fəaliyyətinə verdiyi yüksək qiymətə görə Rusiya Prezidenti Vladimir Putinə təşəkkürünü bildirib.

Məktubda deyilir:

*"Ölkələrimiz arasında münasibətlər bir çox sahələri əhatə edir. Bu münasibətlər strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib. Azərbaycan və Rusiyanın dövlətlərarası əməkdaşlığı çoxəsrlik təməl üzərində təşəkkül tapıb. Azərbaycan və Rusiya öz münasibətlərini sülh, qarşılıqlı hörmət və mehriban qonşuluq əsasında qururlar. Bizim dostluğumuz və səmərəli tərəfdaşlığımız ölkələrimizin və xalqlarımızın maraqlarına tam cavab verir, regionda sülhə və sabitliyə xidmət edir".*

Birinci vitse-prezident Mehriban Əliyeva, həmçinin Rusiyanın dövlət başçısına möhkəm cansağlığı, xoşbəxtlik və uğurlar, Rusiya xalqına firavanlıq, sülh və tərəqqi arzulayıb.

İki sahil.- 2019.- 16 avqust. S. 3.